# NİZAMİ GƏNCƏVİ İRSİNDƏ MÜTALİƏ

**Könül Kərimova**

*BDU, Kitabxanaşünaslıq kafedrasının magistrantı*

Bəşər bədii fikrinin nadir söz dühalarından olan Nizami Gəncəvinin yaradıcılığı səkkiz əsrdən artıqdır ki, xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmişdir.

Nizami Gəncəvi bəşəri sivilizasiyanın tarixindəki o nadir simalardan biridir ki, onun yaradıcılığına verilən qiymət və ona bəslənilən ehtiram heç bir milli, irqi, dini, coğrafi sərhəd tanımır, bu böyük şair, mütəfəkkir üçün zaman çərçivəsi də mövcud deyil və bu gün onun yazıb-yaratdığı dövrdən keçən 880 il - zaman baxımından onun daimiliyinin yalnız bir epizodudur.

Nizami Gəncəvi irsinə Azərbaycanda həmişə diqqət və böyük qayğı ilə yanaşılıb.

Ölkə başçısının 5 yanvar 2021-ci il tarixində imzaladığı Sərəncama əsasən Nizami Gəncəvinin 880 illik yubileyi ilə bağlı ölkəmizdə 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi şairin irsinə ehtiramın daha bir bariz ifadəsidir.

Dahi Nizaminin ölməz ədəbi irsi təkcə humanizm, insana məhəbbət, yüksək əxlaq, estetik zövq, tərbiyə və bilik mənbəyi, heç vaxt qiymətini, etik təsirini itirməyən əlvan söz, dərin fəlsəfi fikir, hikmət xəzinəsi olmaqla bərabər, həm də canlı tariximizdir, keçmişimizin ən qaranlıq guşələrinə şölə salan sönməz işıqdır. Onun elm, idrak, ağıl, kamal haqqında dəyərli fikirləri əsrlər boyu bütün dünya xalqlarının dillər əzbəri və gələcək nəsillər üçün daim ilham mənbəyi olmuşdur.

Mənəvi zənginliyin, əxlaqi saflığın, dünyagörüşünün və bilik dairəsinin genişlənməsində, bədii təxəyyülünün, obrazlı və məntiqi təfəkkürünün, idraki bacarıqlarının inkişafında, bir çox hallarda isə həyat yolunun müəyyənləşməsində və vətəndaş tərbiyəsində, şəxsiyyət olaraq insanın formalaşmasına təsir göstərən amillər sırasında kitabın və mütaliənin müstəsna yeri vardır. Məhz ona görədir ki, tarixin bütün dövrlərində bəşəriyyətin ən qabaqcıl, mütəffəkir şəxsiyyətləri insan mənəviyyatını zənginləşdirən mütaliəyə yüksək qiymət vermişlər.

Dahi Nizami özü qiymətli kitablardan, zəngin kitabxanalardan istifadə etməklə müdrik şəxsiyyət kimi formalaşmış, eyni zamanda ölməz əsərlərində kitab, kitabxana və mütaliə haqqında çox dəyərli fikirlər söyləmişdir. Böyük mütəfəkkir şair Nizami Gəncəvinin əsərlərində mütaliənin əhəmiyyəti haqqında müdrik fikirləri ondan sonra gələn Azərbaycan mütəfəkkirlərinə böyük təsir göstərmişdir.

Dünya ədəbiyyatının incisi sayılan Nizami Gəncəvi "Xəmsə"si onun müəllifinin mütaliəsinin, elmi axtarışlarının nəticəsidir. Şair beş poemasında kifayət qədər əsər adı çəkir ki, bunlar hamısı Nizaminin mütaliə obyekti olmuşdur. Mütaliə dairəsi çox geniş olan Nizami hər bir əsərini yazarkən aramsız axtarışlar aparmış, bir fikir söyləmək üçün yüzlərlə kitab oxumuş, öz mütaiə dairəsini və elmi dünyagörüşünü fasiləsiz şəxsi təhsil yolu ilə zənginləşdirmişdir. Məhz geniş məzmunlu mütaliənin nəticəsidir ki, N. Gəncəvinin əsərlərinin məzmununda müxtəlif elm sahələrinin, mütəxəssislərinin təfəkkürünün qidalanması üçün zəngin material vardır.